# Azərbaycan Xalq Parlamenti

**Address: 169 63 Solna, Sweden** **Phone: +4915205921770** **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

**AZƏRBAYCAN XALQ PARLAMENTİNİN** 09.12.2025

**HÜQUQŞÜNAS NAMİZƏD SƏFƏROVUN**

**AZƏRBAYCAN POLİSİ TƏRƏFİNDƏN SAXLANMASI İLƏ BAĞLI**

**BƏYANATI**

**Azərbaycan Xalq Parlamenti** bu həbsi qətiyyətlə pisləyir, onu hüquqi əsası olmayan siyasi təqib kimi qiymətləndirir və hüquqşünas Namizəd Səfərovun dərhal və qeyd-şərtsiz sərbəst buraxılmasını tələb edir!

**Azərbaycan Xalq Parlamenti hüquqşünas, 70 yaşlı ictimai-siyasi xadim, Parlamentin həmsədri Namizəd Səfərovun saxlanılması xəbərini dərin narahatlıq və kəskin etiraz hissi ilə qarşılayır.** Ona qarşı irəli sürülmüş **ittihamları** tamamilə **əsassız**, **siyasi motivli və cəmiyyətdə total vahimə xofu yaratmaq məqsədi ilə həyata keçirilən siyasi akt** kimi qiymətləndirir və qətiyyətlə **rədd edir**!

Biz bir daha bildiririk ki, siyasi fəaliyyətə görə şərləmə, saxta ittihamlar və repressiyalar Azərbaycan cəmiyyətinin iradəsini qıra bilməyəcək. **Azərbaycan Xalq Parlamenti** öz həmsədri, hüquq müdafiəçisi Namizəd Səfərovun yanında dayanır və onun hüquqlarının tam bərpası üçün bütün mümkün hüquqi və ictimai vasitələrdən istifadə edəcək.

Biz hesab edirik ki, **Namizəd Səfərovun** həbsi hüquqi dövlət prinsiplərinin kobud şəkildə pozulması, müxalif siyasi hərəkatlara qarşı repressiv siyasətin davamı və cəmiyyətdə qorxu mühitinin gücləndirilməsi məqsədi ilə həyata keçirilmiş siyasi aktdır. Bu addım həm ölkə qanunvericiliyinə, həm də Azərbaycanın qoşulduğu beynəlxalq insan hüquqları öhdəliklərinə daban-dabana ziddir.

**Namizəd Səfərov** bütün şüurlu fəaliyyətini Azərbaycan cəmiyyətində hüquqi maarifləndirməyə, ədalət prinsiplərinin təbliğinə və insan hüquqlarının müdafiəsinə həsr etmiş şəxsdir. Onun dürüstlüyü, prinsipiallığı və ictimai nüfuzu onilliklər ərzində formalaşmış, cəmiyyət tərəfindən təsdiqlənmişdir. Bu qədər şəffaf və vicdanlı bir insana qarşı irəli sürülən istənilən ittiham yalnız bir məqsədə xidmət edir: onun siyasi fəaliyyətini, haqq sözünü və ictimai nüfuzunu susdurmaq, həmçinin Azərbaycan Xalq Parlamentinə təzyiq göstərmək.

**Namizəd Səfərova azadlıq!**

**Siyasi təqiblərə son!**

**Hüquqi dövlət prinsipləri bərpa edilsin!**

**Azərbaycan Xalq Parlamentinin adından**

Abid Qafarov
Ərəstun Oruclu
Ataxan Vəli Əbilov